Dində (başqasına) zərər vermək və zərəri zərər ilə qarşılamaq da olmaz

Əbu Səid Səd bin Malik bin Sinan əl-Xudri (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) belə demişdir: "Dində (başqasına) zərər vermək və zərəri zərər ilə qarşılamaq da olmaz".

[Həsən] [رواه ابن ماجه والدارقطني وغيرهما مسندًا]

Peyğəmbər (sallallahu aleyhi va səlləm) bu hədisdə zərərin növündən və şəklindən asılı olmayaraq, onu istər özündən, istərsə də başqalarından uzaqlaşdırmağın vacib olduğunu bəyan etmişdir. Heç kəsin nə özünə, nə də başqalarına zərər verməsi halal deyildir. Həmçinin onun zərərə zərərlə cavab verməsi halal deyildir. Çünki həddi aşmadan qisas almaq istisna olmaqla, heç bir halda zərər, ona müqabil zərər verməklə aradan qaldırılmaz.

http://sunnah.global/hadeeth/az/show/66531